# MƏCİDOV ZAKİR NÜSRƏT OĞLU



Məcidov Zakir Nüsrət oğlu 1956-cı il 26 iyunda Neftçala rayonunun Həsənabad qəsəbəsində dünyaya göz açmışdır. 1963-cü ildə Bakı şəhərindəki 17 saylı orta məktəbə getmiş, təhsilini 70 saylı orta məktəbdə tamamlamışdır. Zakir 1974-cü ildə Ryazan vilayətinin Sasovo şəhərinə gedərək Ali Hərbi Aviasiya məktəbinə daxil olmuşdur. 1977-ci ildə həmin məktəbi bitirərək leytenant rütbəsi almışdır. Yevlax aviadəstəsində AN-2 təyyarəsinin ikinci pilotu kimi əmək fəaliyyətinə başlamışdır. 1980-ci ildə təyinatla Zabrat aviadəstəsində AN-2 təyyarəsinin komandiri təyin edilmişdir. Gənc leytenant 7 il bu müəssisədə çalışmış və istehsalatdan ayrılmadan Ukraynanın Kremençuq Təyyarəçilər Məktəbində Mİ-2 vertolyotu üzrə 6 ay təkmilləşdirmə kursu keçmişdir. Onun ekipajı dəfələrlə sərhəd bölgələrinə uçuşlar edib düşmənin xeyli canlı qüvvəsini və texnikasını raket zərbələri ilə darmadağın etmişdir. Z.Məcidov 1992-ci ilin fevral ayında Milli Ordunun Bakının Qala qəsəbəsində təşkil olunan 843 saylı hərbi hava hissəsində Mİ-24 vertolyotlarından birinə komandir təyin olunur. O, həmin vertolyotla Ağdərənin Aterk kəndində ermənilərin yerləşdiyi qərargahı darmadağın edir, düşmənin xeyli texnikasını sıradan çıxarır. 1992-ci il avqustun 6-da Zakir yenidən ermənilərin Kasapet yüksəkliyindəki üç mövqeyini susduraraq geri dönür. Cəsur komandir dördüncü dəfə havaya qalxır. Düşmən tərəfindən atılan raketlərdən biri vertolyotu müvazinətdən çıxarır. Zakir öz ekipajı ilə birlikdə qəhrəmancasına həlak olur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir övladı var. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə Məcidov Zakir Nüsrət oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.